

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 80 (23.722)

4 may 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçının etimadnaməsini qəbul edib.

Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət zamanı deyib ki, İkinci Qarabağ müharibəsi bütün dünyaya bir daha göstərdi ki, Türkiyə-Azərbaycan bir yerdədirlər. Bildirilib ki, iki qardaş ölkə arasında əlaqələrin təməlində xalqlarımızın qardaşlığı və liderlərin siyasi iradəsi dayanır. Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bundan sonra da bütün məsələlərdə bir-birini dəstəkləyəcək, bütün məsələlərdə bir-birinin yanında olacaq.

Dövlət başçısı əminliyini bildirib ki, Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri fəaliyyəti müddətində bu əlaqələrin daha da inkişaf etməsi üçün öz səylərini göstərəcək.

Səfir Cahit Bağçı Prezident İlham Əliyevə minnətdarlıq edib, fəaliyyət dönəmində əlaqələrin daha da inkişafına, irəli aparılmasına səy göstərəcəyini bildirib.

* * *

Prezident İlham Əliyev həmin gün Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavljeviçin etimadnaməsini qəbul edib.



## Tarixi ədaləti bərpa edənlər unudulmur





***“Şəhidlərimizin qanı yerdə qalmadı. Həm İkinci, həm də Birinci Qarabağ müharibəsinin şəhidlərinin qanını döyüş meydanında aldıq, o cümlədən günahsız insanların, Xocalı qurbanlarının, digər mülki şəxslərin intiqamını düşməndən döyüş meydanında aldıq. Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq”***, – deyən Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini və yenilməzliyini bir daha dünyaya nümayiş etdirdi. Dövlət-xalq-ordu birliyi 30 il işğal altında olan torpaqların düşmən tapdağından azad edilməsi ilə nəticələndi. Tarixi ədalətin bərpa olunmasında Naxçıvanın igid oğulları da şücaət göstərmişlər.

Mayın 3-də Vətən müharibəsi zamanı itkin düşən şəhidimiz Yusifov Əli Süləddin oğlunun cənazəsi muxtar respublikaya gətirilmişdir.

Naxçıvan Beynəlxalq Hava Limanında şəhidimizin qarşılanma mərasimi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, dövlət və hökumət nümayəndələri, hərbçilər və şəhidin ailə üzvləri tədbirdə iştirak etmişlər.

Şəhidin üçrəngli bayrağımıza bükülmüş cənazəsi hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi.

Şəhidin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ali Məclisin Sədri və tədbir iştirakçıları şəhidin xatirəsinə ehtiramlarını bildirdilər.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra “Qurani-Kərim”dən ayələr oxundu, şəhid cənazəsinin önündən keçildi.

Şəhidin cənazəsi doğulduğu kəndə yola salındı.

Ali Məclisin Sədri şəhidin ailə üzvləri ilə görüşərək onlara başsağlığı verdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərində şahmat üzrə Azərbaycan çempionatının açılış mərasimi keçirilib





*Mayın 3-də Naxçıvan şəhərində yerləşən “Gənclik” Mərkəzində şahmat üzrə Azərbaycan çempionatının açılış mərasimi keçirilmişdir.*

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov çıxış edərək demişdir ki, pandemiya dövründə Şahmat Federasiyasının da proqramında müəyyən dəyişiklik edilmişdir. Federasiya bu müddət ərzində onlayn yarış və tədbirlər keçirərək şahmatçıların sevimli idman növlərindən kənarda qalmamasını təmin etmişdir. Naxçıvan Muxtar Respublikası regionda pandemiyanın ən az yayıldığı yerdir. Mövcud şərait imkan verir ki, bu gün Azərbaycan çempionatı Naxçıvanda keçirilsin.

Bildirilmişdir ki, Azərbaycanda şahmata olan dövlət qayğısı daim hiss olunur, şahmat sistemli və ardıcıl inkişaf etdirilir. Bu gün Azərbaycan şahmatçıları dünyada sayılıb-seçilən şahmatçılardandır. Növbəti Azərbaycan çempionatının keçirilməsi bir daha şahmata olan qayğının bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikasında da şahmatın inkişafı daim diqqət mərkəzindədir. Naxçıvan şəhərində müasir Şahmat Mərkəzi, muxtar respublikanın rayonlarında isə uşaq-gənclər şahmat məktəbləri tikilib istifadəyə verilmiş, ümumtəhsil məktəblərində şahmat fənni tədris olunur. Muxtar respublikada daxili turnirlərlə yanaşı, hər il Beynəlxalq Şahmat Festivalı keçirilir. Naxçıvan 16 yaşadək şahmatçılar arasında Ümumdünya Şahmat Olimpiadasının keçirilməsinə də ev sahibliyi edəcək. Şahmata dövlət qayğısının nəticəsidir ki, hazırda muxtar respublika şahmatçıları arasında 1-i qrossmeyster, 2-si beynəlxalq usta, 3-ü FIDE ustası və 1-i beynəlxalq hakimdir.

Seymur Talıbov hər bir şahmatçıya uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov vurğulamışdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin idman və idmançılara göstərdiyi diqqət və qayğı sayəsində muxtar respublikada idmana olan maraq gündən-günə artmaqdadır. Bu gün gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması diqqət mərkəzində saxlanılır, idman klublarının və federasiyaların heyəti ilbəil genişlənir. Hazırda muxtar respublikada 35 min 105 idmançı 2 min 213 qrupda idmanla məşğul olur. Şahmat idman növünə göstərilən diqqətin nəticəsidir ki, artıq bu gün federasiyanın tərkibində 8 şahmat məktəbində 177 müəllim 233 qrupda fəaliyyət göstərir və bu qruplarda 3 min 106 şahmatçı idmanın bu növü ilə məşğul olur.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşəbbüsü ilə ilk dəfə Bakıdan kənarda keçirilən Azərbaycan çempionatının daha maraqlı və yüksək səviyyədə olacağına inamını ifadə edən Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov qonaqpərvərliyə və yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirmişdir. Qeyd edilmişdir ki, növbəti çempionatın muxtar respublikada keçirilməsinin başlıca səbəbi məhz Naxçıvanda keçirilən daxili turnirin beynəlxalq turnir səviyyəsində təşkil olunması, eyni zamanda ənənəvi Naxçıvan Beynəlxalq Şahmat festivallarının yüksək səviyyədə təşkilidir. Ümumiyyətlə, son illərdə Naxçıvanda şahmatın inkişafının yüksək səviyyədə olduğunu vurğulayan Faiq Həsənov bildirmişdir ki, hazırda muxtar respublikada bu idman növünün inkişafı üçün hərtərəfli şərait yaradılmışdır.

Yarışın baş hakimi Lütfiyar Rüstəmov çempionatın yüksək səviyyədə təşkil olunması üçün yaradılan şəraitə görə minnətdarlığını bildirmiş, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi adından tədbir iştirakçılarına uğurlar arzulamış, qaydalar haqqında məlumat vermişdir.

Sonra şahmat çempionatının püşkü atılmışdır.

**“Şərq qapısı”**

*Dövlət proqramı icra olunur*

# Turizmin inkişafı üçün tədbirlər davam etdirilir

*Turizm hər zaman sosial, iqtisadi, mədəni və ekoloji əhəmiyyəti ilə seçilən mühüm fəaliyyət sahələrindən biri olmuşdur. Bu da onu dünyada ən sürətlə böyüyən və dinamik inkişaf edən sektorlardan birinə çevirmişdir. Bu sahənin inkişafı istər dövlətlərarası beynəlxalq əlaqələrin miqyasına, istər qarşılıqlı maliyyə axınına əsaslı təsir etmiş, istərsə də müxtəlif mədəni abidələrin, təbii gözəlliklərin kəşfinə və qorunmasına şərait yaratmışdır. Təqdirəlayiq haldır ki, son illər ölkəmiz dünyada yeni turizm istiqaməti kimi tanınmağa başlayıb, beynəlxalq turizm bazarına inteqrasiya təmin edilib. Artıq respublikamız turizmlə bağlı reytinq cədvəllərində də öndə gedən ölkələr sırasındadır. Prezident cənab İlham Əliyev turizmin əhəmiyyətini vurğulayaraq demişdir:* ***"Turizm də ixracın bir növüdür, çünki turizm ölkəyə valyuta gətirir".***

Naxçıvan Muxtar Respublikasının da qədim tarixi, coğrafi mövqeyi və milli-mədəni sərvətləri bu diyarda turizmin inkişafı üçün geniş potensialın mövcudluğundan xəbər verir. Bu potensialdan yüksək səviyyədə istifadə olunması üçün həyata keçirilən genişmiqyaslı tədbirlər muxtar respublikamızda turizmin yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. Görülən işlərin kompleks xarakter almasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın mühüm rolu vardır.

Proqramın icrası cari ilin yanvar-mart aylarında uğurla icra edilmiş, həyata keçirilən tədbirlərin davamı olaraq fevralın 17-də Naxçıvanda Ağbulaq Xizək Mərkəzi istifadəyə verilmişdir. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"2 il ərzində qurulan dağxizək mərkəzi bu gün muxtar respublika sakinlərinin istifadəsinə verilir. Bunun əhəmiyyəti ondan ibarətdir ki, birinci, vaxtilə bir o qədər də yararlı olmayan bu ərazilərdə muxtar respublikanın əhalisinə, turistlərə xidmət edəcək istirahət mərkəzi yaradılıb. Digər əhəmiyyəti ondan ibarətdir ki, burada yeni iş yerləri açılıb, ərazi muxtar respublikanın sərvətinə çevrilib. Bir sözlə, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması tək bir kəndin, muxtar respublikanın deyil, ümumilikdə, ölkəmizin inkişafına xidmət edəcəkdir..."***

Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən mərkəzdə uzunluğu 1580, eni 18-30 metr olan dağxizək sahəsi, əyləncə və uşaq parkları, 219 metrlik konveyer xətləri, 20 min kubmetr tutumu olan süni göl yaradılmış, 26 sabit, 3 hərəkətli süni qaryaratma sistemi, 1 motor stansiyası, uzunluğu 980 metr olan kanat qurașdırılmışdır. Kanat yolunda hər biri 4 yerlik olan 59 oturacaq vardır ki, bu da saatda 1000-dən artıq turistə xidmət etməyə imkan verir. Naxçıvanı qış turizminin ideal məkanına çevirən bu irimiqyaslı layihənin uğurla icra edilməsi muxtar respublikada turizmin inkişafına göstərilən dövlət dəstəyinin daha bir ifadəsidir.

Birinci rübdə Ağbulaq Xizək Mərkəzinin tanıdılması istiqamətində tədbirlərin görülməsi diqqət mərkəzində saxlanılmış, Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytında Ağbulaq Xizək Mərkəzinin saytına keçid linki yerləşdirilmişdir. Xizək Mərkəzinin *skiazerbaijan.com* platformasına inteqrasiya edilməsi üçün mərkəz haqqında məlumatlar Azərbaycan Turizm Bürosuna göndərilmişdir. Martın 30-da Ağbulaq Xizək Mərkəzində "Naxçıvan Muxtar Respublikasının turizm potensialının təbliğində gənclərin rolu" mövzusunda tədbir keçirilmişdir.

Muxtar respublikada birinci rübdə, həmçinin Darıdağ arsenli su müalicə və istirahət kompleksinin tikintisi də davam etdirilmişdir. Adıçəkilən irimiqyaslı layihə Naxçıvanda turizmin bu istiqamət üzrə gələcək inkişafının möhkəm təməllər üzərində dayandığını sübut edir.

Naxçıvanın tarixi-mədəni irsini özündə əks etdirən mədəniyyət abidələrinin bərpası turizmin inkişafı sahəsində həyata keçirilən digər mühüm tədbirlərdən biri kimi diqqəti cəlb etməkdədir. Bu istiqamətdə birinci rübdə Ordubad şəhərindəki qədim "Cümə" məscidinin bərpası və Cəhri qəsəbəsindəki tarixi "Heydərxanlı" məscidinin özünün orijinal layihəsi əsasında yenidən inşa olunması davam etdirilmişdir. Həmçinin bu dövrdə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi



tərəfindən muxtar respublikada turizmin inkişafı və perspektivləri, eləcə də turizm marşrutları üzrə bir neçə abidənin daxil edildiyi 1 monoqrafiya nəşrə təqdim olunmuşdur.

Turizm reklam fəaliyyətinə ehtiyac duyan sektorlardandır. Turizm bölgəsinin yerli və xarici turistlərə əhatəli şəkildə tanıdılması həmin bölgəyə gələcək turistlərin sayının çoxluğuna birbaşa təsir edən məsələlərdəndir. Dövlət proqramında da Naxçıvan Muxtar Respublikası üzrə turizm ilə bağlı məlumatların internetdə yerləşdirilməsi və onların daim yenilənməsinin təmin edilməsi, muxtar respublikaya səfər edən turistlərin məlumatlılığının artırılması üçün tədbirlərin görülməsi istiqamətində tapşırıqlar nəzərdə tutulmuşdur. Bu istiqamətdə birinci rübdə Naxçıvan Turizm İnformasiya Mərkəzinin sosial şəbəkələrdəki səhifələrinə 189 məlumat daxil edilmiş, 126 min 151 baxış sayı qeydə alınmışdır. Mərkəzin "YouTube" kanalına muxtar respublikanın turizm potensialını əks etdirən 3 videoçarx yerləşdirilmişdir. Bu dövrdə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin "Facebook" və "Instagram" səhifələri fəaliyyətə başlamışdır. Turizm İnformasiya Mərkəzinin sosial şəbəkə hesablarına, elektron poçt ünvanına, ümumilikdə, 29 müraciət daxil olmuş və cavablandırılmışdır. Mərkəzə şifahi qaydada müraciət edən 5 turistin buradakı çap materialları ilə tanışlığı təmin edilmiş, onlara turist xəritələri və müxtəlif istiqamətli turizm marşrutlarını əks etdirən bukletlər təqdim olunmuşdur. İlin əvvəlində "Naxçıvan Muxtar Respublikasının 2021-ci il üçün Turizm Təqvimi" hazırlanmışdır.

Martın 19-dan aprelin 3-dək muxtar respublikaya İran İslam Respublikasından səfər edən turistlər üçün turun koordinasiyası təşkil olunmuşdur. Turist məmnunluğunun müəyyənləşdirilməsi məqsədilə müvafiq sorğu blankları hazırlanmış və tu-



ristlər arasında sorğu keçirilmişdir.

Muxtar respublikada adıçəkilən sahənin inkişafına reklam fəaliyyəti qədər təsir göstərən faktorlardan biri də beynəlxalq tədbirlərdə yerli turizm məhsullarının təqdim olunması və Naxçıvanın turizm potensialının nümayiş etdirilməsidir. Belə ki, 24-27 mart tarixlərdə Antalya şəhərində keçirilən "3-cü Türkiyə Turizm Tədarük Sərgisi"ndə muxtar respublikadan "Nəqşicahan" Holdinq Şirkətlər Qrupunun və "Duzdağ" hotelin nümayəndələrinin iştirakı təmin olunmuşdur. Naxçıvanı təmsil edən nümayəndələr tədbirin rəsmi açılış mərasimində çıxış etmiş və muxtar respublikanın turizm potensialı haqqında ətraflı məlumat vermişlər. Həmçinin sərgidə çox sayda şirkət nümayəndələri ilə əməkdaşlıq haqqında müzakirələr aparılmışdır. Bütün bunlarla yanaşı, martın 29-da Azərbaycan Turizm Bürosu tərəfindən Rusiya və MDB ölkələrində fəaliyyət göstərən turizm şirkətləri ilə "Naxçıvan – əfsanələr diyarı, qədim mədəniyyət" mövzusunda vebinar təşkil olunmuşdur.

Nəqliyyat hər bir ölkənin iqtisadiyyatının təməlini təşkil edən sahələrdən biri hesab olunur. Dünyada turizm meyillərinin artması nəqliyyat sektorunun da yeni inkişaf mərhələsinə qədəm qoymasını ilə nəticələnmişdir. Bir bölgəyə səyahət etməyi planlaşdıran turist üçün ən önəmli faktorlardan biri seçdiyi məkana qısa müddətdə çatmaq imkanı, hərəkət rahatlığı və bu istiqamətdə maddi cəhətdən sərfəli təklifin mövcudluğudur. Ona görə də nəqliyyat sahəsinin inkişafı özlüyündə turizmin də inkişafını şərtləndirməkdədir. Proqramın icrasına uyğun olaraq birinci rübdə Ağbulaq İstirahət və Duzdağ Fizioterapiya mərkəzləri üçün avtobus marşrutlarının fəaliyyəti davam etdirilmişdir. Həmçinin "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi istiqamətində avtobus marşrutunun aprel ayından etibarən fəaliyyətə başlaması üçün hazırlıq işləri görülmüşdür. Muxtar respublikada taksi fəaliyyəti göstərən sürücülərin qrafik əsasında muzeylərdə olması və maarifləndirilməsi turistlərə xidmət göstərən nəqliyyat vasitələrində xidmətin keyfiyyətinin yüksəldilməsinə şərait yaratmışdır.

Turizmin inkişafı üçün ətraf mühitin qorunması və yaşıllıqların artırılması da xüsusi əhəmiyyət kəsb edir. Ekoloji turizm insanların istirahət etməklə yanaşı, ətraf mühit qarşısında məsuliyyətini dərk etməsini, təbiət gözəlliklərindən zövq almaqla bərabər, onu qorumaq mədəniyyətini də özündə ehtiva edir. Muxtar respublikamızda həyata keçirilən tədbirlər onun ekoloji turizm potensialının da genişləndirilməsinə şərait yaradır. Birinci rübdə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı ərazisində 0,5 hektar sahədə meyvə bağı salınmış, 10 hektar sahədə toxum üsulu ilə əkin aparılmışdır. Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində ekologiya könüllülərinin iştirakı ilə biotexniki tədbir keçirilmiş, eyni zamanda onların qoruq ərazisindəki muzeydə eksponatlarla tanışlığı təmin olunmuşdur.

Naxçıvanda turizmin inkişafına göstərilən dövlət dəstəyi ilə yanaşı, bu sahədə sahibkarlıq fəaliyyətinin təşkili də diqqətdə saxlanılır. Həyata keçirilən stimullaşdırıcı tədbirlər sahibkarların diqqətinin bu sahəyə cəlb edilməsi məqsədi daşıyır. Martın 11-də Naxçıvan Biznes Mərkəzində



İqtisadiyyat Nazirliyi və Sahibkarlar Konfederasiyasının birgə təşkilatçılığı ilə "Sahibkarlıq subyektlərində mühasibatlıq və idarəçilik" mövzusunda 24 sahibkarlıq subyektinin iştirakı ilə seminar keçirilmişdir. Seminarda "Kiçikhəcmli kənd turizmi" layihəsinin təqdimatı olmuş və sahibkarlıq subyektlərinə bu sahənin inkişafı istiqamətində dövlət maliyyə dəstəyi barədə məlumat verilmişdir.

İstənilən sosial-iqtisadi sahədə olduğu kimi, turizm sektorunda da mütəxəssis hazırlığının təşkili başlıca amillərdən biridir. Bu istiqamətdə təşkil edilən təlimlər və seminarlar maarifləndirici xarakter daşımaqla bərabər, beynəlxalq aləmdə turizm sahəsində baş verən yeniliklərə çevik reaksiya verilməsi üçün geniş imkanlar açır. Yanvar və fevral aylarında Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə keçirilən və ölkəmizin bütün turizm bölgələrinin təmsil olunduğu "Azərbaycanda Quş Gözləmçiliyi turizmi" mövzusunda onlayn təlimdə muxtar respublikanın turizm sektorunun nümayəndələri də iştirak etmişdir. Bununla yanaşı, birinci rübdə Turizm Departamentində muxtar respublikada fəaliyyət göstərən turoperatorların, mehmanxanaların nümayəndələrinin və turizm könüllülərinin iştirakı ilə "Naxçıvan Muxtar Respublikasında daxili turizmin inkişafı" mövzusunda tədbir və "Turizm sahəsində dövlət standartlarının tətbiqi" mövzusunda seminar keçirilmişdir. Bu dövrdə Təhsil Nazirliyi tərəfindən "Turizm agenti" peşə ixtisasının tədris proqramına uyğun olaraq elektron dərs vəsaitinin hazırlanması isə turizm sahəsində peşə təhsilinin dəstəklənməsinin mühüm təzahürüdür.

Dövlət proqramında nəzərdə tutulan tədbirlərin bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi ixtisaslaşmış turizm məkanına çevrilməklə Naxçıvan Muxtar Respublikasının turizmdə üstünlüyünü daha da artıracaqdır.

**"Şərq qapısı"**





*Estafet*

# Azad söz, azad mətbuat demokratiyanın meyarıdır

## Muxtar respublikamızda medianın çoxcəhətli inkişafının əsasında kütləvi informasiya vasitələrinə hərtərəfli dövlət qayğısı dayanır

***Azad söz, azad mətbuat hər zaman cəmiyyətdə demokratiyanın meyarı, ölçüsü hesab edilib. Dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da jurnalistikanın inkişafı, mətbuat azadlığı diqqət və qayğı ilə əhatə olunub. Mövzu ilə bağlı Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyeva ilə həmsöhbət olduq.***




*– Şəhla xanım, istərdim ilk olaraq bu sualı cavablandırasınız. Azərbaycan mətbuatı fəaliyyətində əsas prinsipləri hansı səviyyədə qoruyub və qoruyur?*

– Artıq Azərbaycan inkişaf etmiş, müstəqil bir dövlət kimi dünya birliyinin layiqli üzvünə çevrilmiş və dünya miqyasında tanınmışdır. Təbii ki, bu prosesdə cəmiyyətin güzgüsü, təbliğat vasitəsi kimi dəyərləndirilən mətbuatın, KİV-in özünəməxsus rolu var. Bildiyimiz kimi, jurnalistikanın əsas prinsipləri obyektivlik, qərəzsizlik, vicdanlılıq, dəqiqlik, balanslılıq, operativlikdir. Bütün bunlarla yanaşı, hər bir jurnalist ilk öncə vətənpərvər olmalı, dövlətçilik prinsipini də qorumalıdır. Ölkəmizdə fəaliyyət göstərən mətbuat orqanlarının əksəriyyəti bu təməl prinsiplərə əməl edir, fəaliyyətlərində dövlətçilik, vətənpərvərlik kimi prinsipləri ön planda tuturlar. Son hadisələr, 44 günlük II Qarabağ müharibəsi dövründə baş verənlər bir daha bizə dövlətçilik ideologiyasını hər şeydən üstün tutmağı təlqin etdi. Buna görə də mətbuat daim dövlətçiliyimizin qorunmasına, inkişafına öz töhfəsini verməli, jurnalistlərimiz vətənpərvərlik prinsipini əsas tutaraq çalışmalıdırlar. Bu peşə sahibləri, hər şeydən əvvəl, Azərbaycan Respublikasının vətəndaşı kimi dövlət, xalq qarşısında öhdəliklərini yerinə yetirməlidirlər.

*– Azərbaycanda söz və məlumat azadlığının inkişafında mətbuatın rolu və yeri barədə də fikirləriniz oxucularımız üçün maraqlı olar.*

– Demokratiyanın əsas göstəricilərindən sayılan söz və məlumat azadlığı prinsipi dövlətlərin, xalqların hərtərəfli inkişafında, cəmiyyətlərin formalaşmasında müstəsna rol oynayır. Azərbaycan da söz azadlığının qorunduğu, mətbuat azadlığı prinsipinə hörmətlə yanaşılan ölkələrdəndir.

"Əkinçi" qəzeti ilə əsası qoyulan milli mətbuatımız yarandığı gündən etibarən Azərbaycan xalqının ictimai, maarifçilik, sosial və siyasi həyatında mühüm rol oynayıb. Ümumiyyətlə, mətbuatın fəallığı ən çox özünü xalqın milli azadlıq uğrunda mübarizə apardığı illərdə göstərib. Belə ki, XX əsrin 80-ci illərinin sonlarında – Azərbaycanda milli azadlıq hərəkatının başlandığı dövrdə xalqı birləşdirən başlıca vasitələrdən biri, bəlkə də, ən birincisi də məhz mətbuat oldu. Həmin ildən başlayaraq, "Azərbaycan", "Aydınlıq", "Səhər", "Həyat" və digər mətbuat orqanları, 90-cı illərin əvvəllərindən isə "Səs", "Yeni Azərbaycan", "İki Sahil" və digər mətbuat orqanları ölkədə və dünyada baş verən hadisələri işıqlandırmağa, oxucu kütləsini dolğun informasiyalar ilə təmin etməyə başladı. Bu isə Azərbaycanda azad mətbuatın inkişafı, söz və mətbuat azadlığının təmin olunması istiqamətində böyük əhəmiyyətə malik idi. Ötən dövrdə müstəqil mətbuatın, söz, fikir azadlığının inkişafına ziyalıların göstərdiyi xidmətlər bu sahədə yaranan peşəkarlığın, rəngarəngliyin əsasını qoydu.

*– Ölkəmizdə medianın inkişafından, söz, mətbuat azadlığının, demokratiyanın bərqərar olmasından danışarkən, ilk növbədə, ümummilli lider Heydər Əliyevin bu sahədəki misilsiz xidmətləri göz önünə gəlir…*

– Azərbaycan mətbuatının, sözün həqiqi mənasında, müstəqilliyini əldə etməsi, ölkəmizdə söz və mətbuat azadlığının bərpa olunması, azad medianın inkişafı ilə bağlı əhəmiyyətli qərarların qəbul olunması ulu öndər, görkəmli siyasi xadim Heydər Əliyevin adı ilə bağlıdır. Azad mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlərin, o cümlədən senzuranın aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi və müasir dünya standartlarına uyğunlaşdırılması, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və onlar üçün çoxsaylı güzəştlərin müəyyənləşdirilməsi, bu istiqamətdə verilmiş bir sıra fərman və sərəncamlar, mətbuat işçiləri ilə mütəmadi görüşlər ənənəsinin yaradılması, KİV-lə bağlı problemlərə operativ müdaxilə – bütün bunlar ümummilli liderin azad sözə və onun daşıyıcılarına münasibətini səciyyələndirən faktlardır.

Xüsusilə vurğulamaq istərdim ki, məhz dahi şəxsiyyətin hakimiyyətə gəlişindən sonra ölkədə medianın fəaliyyətinin tənzimlənməsi və media sahəsində mükəmməl qanunvericilik bazasına nail olmaq üçün bir sıra addımlar atıldı. Təsadüfi deyil ki, 1998-ci il avqustun 6-da ulu öndər Heydər Əliyev "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzaladı. Bu fərmanın bir bəndi ilə mətbuatda dövlət sirlərini mühafizə edən baş idarə ləğv olundu. Bu, senzuranın ləğvi demək idi. Ulu öndər bildirirdi ki, bizim məqsədimiz mətbuata daha çox azadlıq vermək, söz azadlığını təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələr üzrə inkişaf etdirməkdən ibarətdir. Bir sözlə, ölkəmizdə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan söz, mətbuat azadlığı mövcuddur və yüksək səviyyədə qorunur.

*– Hazırda müasir və ənənəvi media arasında, sanki bir rəqabət tendensiyası mövcuddur. Sizcə, ənənəvi medianın mətbuatdakı rolu və yeri hansı səviyyədədir?*

– Müasir dövrdə informasiya texnologiyaları meydana çıxdıqca yenilər köhnələri sıxışdırır. Çünki yeni maraqlıdır, üstün imkanları var və sair. Tarixə nəzər salsaq, görərik ki, radio və televiziya yayımının ilk illərində bəzi şəxslər düşünürdülər ki, artıq çap mediasının ömrü başa çatıb. Biz bu haqda jurnalistika dərsliklərində də oxumuşuq. Amma davam edən proseslər proqnozların düz olmadığını göstərdi. Bu gün yeni mediadan danışırıq, amma yenə də hər gün müxtəlif adda yüzlərlə qəzet çap olunur, köşklərdə satılır. Əlbəttə, çap materiallarının operativlikdə yeni mediaya qalib gələcəyini gözləmək məntiqsizdir. Dünya təcrübəsi onu göstərir ki, qəzetlər rəqabətin güclü olduğu dövrdə də düzgün qərarlarla mövcudluğunu qoruyub saxlaya bilər. Bu gün, demək olar ki, bütün qəzetlərin onlayn platformalarda fəaliyyəti mövcuddur. Bununla birlikdə, qəzet çapı da davam etməkdədir. Müasir informasiya mühitində qəzetlərin mövcudluğunu qoruyub saxlaması çox çətin görünsə də, işin düzgün təşkili ilə buna nail olmaq mümkündür. Əsas məsələ klassik ənənələrə sadiq olmaqla, həm də yeni tendensiyalardan geri qalmamaqdır.

*– Şəhla müəllimə, heç şübhəsiz ki, muxtar respublikamızda da medianın çoxcəhətli inkişafının əsasında kütləvi informasiya vasitələrinə hərtərəfli dövlət qayğısı dayanır. Bununla bağlı nə deyə bilərsiniz?*

– Bu gün Naxçıvan Muxtar Respublikasında da kütləvi informasiya vasitələri hərtərəfli qayğı ilə əhatə olunmuşdur. Azad mətbuatın inkişafı, söz azadlığının təmin olunması və informasiyanın operativ çatdırılması muxtar respublika rəhbəri tərəfindən daim diqqət mərkəzində saxlanılır. Hazırda muxtar respublikada "Şərq qapısı" ilə yanaşı, 8 şəhər və rayon qəzeti, "Universitet" televiziya və radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio və 6 nəşriyyat fəaliyyət göstərir, kütləvi informasiya orqanlarında 400-dən artıq əməkdaş çalışır, onların peşəkar əməyi daim yüksək qiymətləndirilir. Naxçıvan Mətbuat Şurasının, Televiziya və Radio Şurasının yaradılması bu sahənin inkişafına mühüm təkan verib. Bu il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsinin yaradılması muxtar respublikamızda mətbuata, KİV-ə, jurnalistikaya göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Hazırda muxtar respublikada jurnalist kadrların yetişdirilməsində Naxçıvan Dövlət Universiteti əsas baza rolunu oynayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və dəstəyi ilə 2001-ci ildə universitetdə Jurnalistika ixtisasının açılması regionda ali təhsilli jurnalist mütəxəssislərin yetişdirilməsi məqsədi daşıyan mühüm addım idi. Universitetin bu ixtisas üzrə hər il orta hesabla 12-14 nəfər bakalavr məzunu olur.

Naxçıvan Dövlət Universitetində Jurnalistika ixtisası tələbələrinin peşəkar səviyyədə hazırlanmasında fundamental praktik baza rolu oynayan müxtəlif qurumlar mövcuddur ki, bu qurumlar 22 iyul 2011-ci il tarixdən etibarən Azərbaycan ali təhsil sistemində analoqu olmayan Media Mərkəzi şəklində cəmləşmişdir. 2006-cı ildən fəaliyyət göstərən "Universitet" televiziyası ilk illər universitet ərazisindən 10 kilometr məsafədə olmaqla yayımlanırdı. Ali Məclis Sədrinin diqqət və qayğısı, ixtisas müəllimlərinin, Media Mərkəzinin işçi heyəti və tələbə-jurnalistlərin xüsusi bacarığı və səyi nəticəsində "Universitet" televiziyası bu il fevral ayının 24-dən etibarən muxtar respublikada yayıma başlayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixdə imzaladığı Sərəncamla və "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamla Jurnalistika ixtisasının tələbələri "Şərq qapısı" qəzetinə və "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə hamiliyə verilmişdir. Sərəncamdan irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılır, adıçəkilən media qurumlarının əməkdaşlarının Jurnalistika ixtisasının tələbələri ilə müxtəlif vaxtlarda görüşləri keçirilir, tələbə-jurnalistlər muxtar respublikanın aparıcı kütləvi informasiya vasitələri ilə fəal əməkdaşlığa cəlb olunurlar.

*– Qarşıdakı illər üçün nəzərdə tutulan hədəflər mətbuata nə vəd edir?*

– Jurnalistikanın inkişafı istiqamətində qazanılan möhtəşəm nailiyyətlərin əsasında ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi altında inamla davam etdirilən inkişaf siyasəti dayanır. Bu gün ölkə mətbuatı ictimai-siyasi və mədəni həyatımızın inkişafında mühüm rol oynayaraq, bizi böyük və mübariz xalq olaraq dünyaya tanıdır. Heç şübhəsiz ki, dövlətin əsas ideoloji sütunu olan media bundan sonra da dövlətin, cəmiyyətin mənafeyini çox önəmli bir məsələ kimi daim diqqətdə saxlayacaq. Mətbuat işçiləri öz vəzifələrinin öhdəsindən layiqincə gəlib, mətbuatımızı dövlətçilik konsepsiyası əsasında uğurla inkişaf etdirəcəklər.

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

## Naxçıvan Tibb Kollecinin kollektivi ilə görüş keçirilib



***Naxçıvan Tibb Kollecinin müəllim-tələbə kollektivi Naxçıvan Dövlət Universitetində olub. Ali təhsil ocağının Tibb fakültəsində kadr hazırlığı vəziyyəti və maddi-texniki baza ilə tanışlıqdan sonra fakültədə "Naxçıvan Muxtar Respublikasında Tibbi kadr hazırlığında Tibb fakültəsinin və Tibb Kollecinin rolu" mövzusunda tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev bildirib ki, tələbələrin təcrübə keçməsində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan xəstəxanaların mühüm rolu vardır. Bu da, öz növbəsində, ixtisaslı tibbi kadrların hazırlanmasına xidmət edir. Diqqətə çatdırılıb ki, fakültəni bitirən məzunlar fəaliyyətlərini, nəinki muxtar respublikamızda, dünyanın bir çox inkişaf etmiş ölkələrində uğurla davam etdirirlər.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxışında Naxçıvan səhiyyəsinin inkişafına dövlət qayğısından danışıb. Bildirilib ki, bu gün səhiyyə sahəsinə göstərilən yüksək qayğı nəticəsində muxtar respublikanın şəhər, rayon və kəndlərində ən müasir standartlara cavab verən xəstəxana, həkim-ambulatoriyası, feldşer-mama məntəqələri əhaliyə keyfiyyətli tibbi xidməti təmin edir. Bütün bunlarla yanaşı, kadr hazırlığı da daim diqqətdə olan məsələlərdəndir.

Tədbirdə Tibb Kollecinin direktoru Sona Məmmədova muxtar respublikada orta ixtisaslı tibbi kadrların hazırlığında kollecin rolu haqqında çıxış edib, təşkil edilən görüşün əhəmiyyətindən danışaraq minnətdarlığını bildirib.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru Elsevər Əsədov fakültənin muxtar respublikada tibbi kadrların hazırlığında rolu barədə çıxış edib. Qeyd olunub ki, fakültədə yaradılan müasir şərait nəticəsində hazırda burada 6 ixtisas üzrə kadr hazırlığı aparılır. 2012-ci ildən etibarən fakültənin nəzdində rezidentura təhsil pilləsi üzrə həkim-rezident hazırlığının aparılması isə peşəkar həkim kadrların yetişdirilməsində əhəmiyyətli rola malikdir. 2021-2022-ci tədris ili üçün ilk dəfə olaraq Hərbi tibb ixtisası üzrə kadr hazırlığının həyata keçirilməsindən danışan Elsevər Əsədov bildirib ki, bu ixtisas üzrə kadrların hazırlanması gələcəkdə hərbi tibb işçilərinin yetişməsinə öz töhfəsini verəcək.

Sonda videoçarxa baxış olub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## İkinci Dünya müharibəsi iştirakçılarına və digər müvafiq şəxslərə birdəfəlik maddi yardım ödəniləcək

Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbənin qazanılmasına mühüm töhfələr vermiş, fədakarlıq göstərərək şərəfli döyüş yolu keçmişdir. Həmin illərdə Azərbaycan diviziyalarının tərkibində döyüş cəbhəsinə gedən naxçıvanlılar da qəhrəmanlıqları ilə tarix yazmışlar. Ümumilikdə, 29 min 500 nəfər muxtar respublika sakini 1941-1945-ci illər müharibəsində iştirak etmişdir. Onlardan 3 nəfər SSRİ-nin ən yüksək mükafatına – "Sovet İttifaqı Qəhrəmanı" adına, 1 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüş, 600 nəfər isə müxtəlif orden və medallarla təltif edilmişdir. 102 nəfər "Şöhrət" ordeninin ayrı-ayrı dərəcələri, 105 nəfər birinci və ikinci dərəcəli "Böyük Vətən Müharibəsi", 315 nəfər "Qırmızı Ulduz", 29 nəfər "Qırmızı Bayraq" ordenləri ilə təltif edilmişdir.

Hər il 9 May Qələbə bayramı ərəfəsində ölkə başçısının müharibə veteranlarının sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması ənənəyə çevrilmişdir. Azərbaycan Respublikası Prezidentinin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2021-ci il 29 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarını göstərir.

Sərəncama əsasən İkinci Dünya müharibəsində Qələbənin 76-cı ildönümü ilə əlaqədar həmin müharibədə iştirak etmiş şəxslərə 1500 manat, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına isə 750 manat məbləğində birdəfəlik maddi yardım veriləcəkdir.

Sərəncam muxtar respublika üzrə, ümumilikdə, 450 nəfərə şamil olunacaq. Onlardan 11 nəfəri İkinci Dünya müharibəsinin iştirakçısı, 439 nəfər isə İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş və sərəncamda nəzərdə tutulan digər müvafiq şəxslərdir.

Sərəncama əsasən birdəfəlik maddi yardım İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

*Əfsanəyə dönən ömürlər*

# Bir amalın iki qəhrəmanı

***Naxçıvanda – bu ulu yurdda dünyaya göz açıb, böyüyüb boya-başa çatan, iki mərd, vətənsevər, igid oğulun yolu 44 günlük Vətən müharibəsində kəsişdi. Bu yolun yolçularının taleyi, sanki eyni yazılmışdı. Ömürlərinin bahar çağında payız fəslini də bahara çevirdilər, igidlikləri ilə Vətən torpağında əzizlərinin nəfəsini duymadığı üçün solan, illərdir, imdad diləyən xarı bülbülü öz qızıl qanları ilə suvardılar. Onların babaları da adaş idi, özləri də. İki igid oğul qədim Naxçıvanın igidlər yurdu Şərur rayonunun Qarahəsənli kəndində dünyaya ayrı-ayrı vaxtlarda göz açsalar da, eyni yolun yolçusu oldular. Vətən müharibəsində ölümsüzlüyə qovuşdular. Vətənsevər, qəlbi torpaq sevgisiylə dolu, qanına vətənpərvərlik hopan iki cəsur, nər oğul həyatlarını uf demədən qurban verdi Vətən torpağına. Onlar Qarahəsənli kəndinin Qarabağda öz canından keçən ilk igidi deyillər. Azərbaycanın Milli Qəhrəmanı Kərim Kərimov da bu yurd yerində dünyaya göz açmışdı. Elə üçünün də məzarı yan-yanadır kənd məzarlığında. Bu iki igid Kərimin xain düşmənin gülləsinə tuş gəldiyi üçün tamamlaya bilmədiyi bir missiyanı yerinə yetirdi. Onlar Milli Qəhrəmanımıza qələbə müjdəsini çatdırdılar. Kənddə ilk ziyarət etdiyim ünvan Həsən Quliyevin ocağı oldu.***





Anası İradə xanım oğlu üçün bəzədiyi, muzeyə çevirdiyi otaqda qarşılayır bizi. Bu otaqda nələr yoxdur? Həsənin hərbi formaları, xidmət etdiyi və təhsil aldığı illərdə təltifləri, fotoları, mütaliə etdiyi kitablar. Şəkillərdəki gülən gözlərə, gənc çöhrəyə baxanda insanı biranlıq kədər bürüsə də, az sonra bu kədəri qürur əvəz edir. İradə xala deyir ki, Həsən dünyaya gələndə ona babasının adını verdik. Babası hərbçi olub, İkinci Dünya müharibəsi veteranı idi. Adı ilə bərabər babasının sevdiyi sənətin də yaşadıcısı oldu. Hələ balaca ikən qohum uşaqlarından kimdə hərbi forma görsə, mütləq onun papağını başına qoyub, hərbçi olacam deyərdi. Üç oğlumun sonbeşiyi idi Həsən... O, istəyinə çatmaq üçün mübarizə aparmaqdan heç vaxt yorulmazdı. Heydər Əliyev adına Hərbi Liseyə də, Azərbaycan Ali Hərbi Məktəbinə də öz istəyi ilə getmişdi. Təhsilini bitirib leytenant rütbəsi alanda çox sevinmişdi. İlk xidmətə cəbhə bölgəsi olan Goranboy rayonunun Ballıqaya kəndində başlamışdı. Vətən müharibəsi başlayan gündən ürəyim yanırdı, özümə yer tapa bilmirdim. Gecə-gündüz fikrim oradakı övladlarımızın yanında idi. Üç gün idi ki, şiddətli döyüşlər gedirdi. Həsənin şəhid xəbəri gələn günü onun 24 yaşı tamam olacaqdı. Oktyabrın 1-də balamı o çox sevdiyi, uğrunda canından keçdiyi Vətən torpağına tapşırdıq. Hər gün gedirəm o müqəddəs məzarına... İgid oğlum, sənin qisasını hərbçi yoldaşların aldı. Arzusunda olduğun qələbə xəbərini sən gətirdin, özün də bilmədən qələbə müjdəçisi, sülh göyərçini oldun. Döyüşlərdə göstərdiyin igidliyə görə cənab Prezident səni "Vətən uğrunda", "III dərəcəli Vətənə xidmətə görə" medalları ilə təltif etdi deyirəm.

Fazil Səfərov – dostu, tələbə yoldaşı: – Həsənlə həm kursant, həm də tələbə yoldaşı olmuşam. Təhsilimizi bitirdikdən sonra ayrı-ayrı yerlərdə xidmətə başlamışıq. Həsənin ürəyi ancaq Vətənlə döyünürdü. O, cəsur, igid bir zabit idi. Xidmətini cəbhə bölgəsində keçirir, hər an döyüşə girməyə can atırdı. Vətən müharibəsi başlayanda o, Murovdağ, mən isə Cəbrayıl-Füzuli istiqamətində idim. Mən hərbçi olmağı dayım – Birinci Qarabağ müharibəsi zamanı şəhid olan Azərbaycan Respublikasının Milli Qəhrəmanı Kərim Kərimovun qisasını almaq üçün seçmişdim. Onun yarımçıq qoyduğu işi tamamlamaq üçün... Müharibə başlanandan iki gün sonra Həsənin şəhid olduğu xəbərini alanda qəlbimdəki intiqam, qisas məşəli daha da alovlandı. Qubadlıya kimi şəhidlərimizin qisasını almaq üçün düşməni məhv etdim, döyüşlərdən birində ağır yaralandım.

Vətən uğrunda ya şəhid, ya da qazi olmaq damarında azərbaycanlı qanı axan hər bir hərbçinin arzusudur. Müharibə qələbə ilə bitəndə onları itirdiyimizə görə heyifsilənsək də, qürurumuz daha çox idi. Çünki Həsən kimi oğullar xalqımızı illərdir həsrətini çəkdiyi yurd-yuvalarına qovuşdurdu. Həsənin ailəsi və yaxın dostu ilə həmsöhbət olduqdan sonra kəndin digər qəhrəmanı Həsən Cəlilovun ocağına üz tuturuq.

İki bacının bir qardaşı, Cəlilovlar soyunun tək davamçısı, üç ay idi ki, bir gözəlin adaxlısı idi. Nişanlısı ilə üzbəüz əyləşmək, onun gözlərindəki kədər qarışıq qüruru izləmək qədər çətin heç nə ola bilməzdi mənim üçün.

"Ailəmizin tək çırağı Həsən sönmədi, məşələ döndü", – deyir atası Məhərrəm dayı. İgid bir övlad böyütdük, o bizim sönməyən ocağımızdı. Qapımızda dalğalanan bayrağı o gətirdi. Bu gün Füzulinin, Qubadlının, Şuşanın, Kəlbəcərin, Ağdamın – vüsalına qovuşduğumuz digər torpaqlarımızın azad səmalarında da dalğalanır o bayraq. Oğlumun döyüşlərdəki qəhrəmanlıqları haqqında məlumat alanda fəxr hissi keçirdim. Kaş ki daha çox döyüşüb, daha çox torpağın işğaldan azad edilməsində əməyi olardı deyirəm. Amma taleyi yazan Tanrıdı, uca Allah kimin qismətinə nə yazıbsa, onu da yaşayır. Həsən şəhidlik məqamına yüksəldikdən sonra bütün el evimizə axışdı, dərdimizə şərik oldu. Cənazəsini gətirən döyüş yoldaşları Həsənin igidliyindən söz açdıqca yanan ürəyimizə az da olsa, su səpildi. Oğlumun Prezident cənab İlham Əliyev tərəfindən "Vətən uğrunda" medalı ilə təltif edilməsi isə bizi daha da qürurlandırdı. Bu gün onları yaşadan Vətənə sonsuz sevgiləri, şücaətləri, həm də xalqımızın böyük ehtiramı, dövlətimizin biz şəhid ailələrinə qayğısıdır.

Kifayət xanım – anası: – Bir neçə ay idi ki, getmişdi orduya. Təzəcə nişanlanmışdı. Cəmi üç ay idi. Tək oğlum, gözümün işığı həmişə, hər işdə özünü irəli verərdi. Elə bu dəfə də elə oldu. Səhər tezdən qalxıb işə yola salmışdım, heç bir az keçməmiş evə qayıtdı ki, gedirəm Qarabağa. Tələm-tələsik yuyunub formasını dəyişdi, dedim ki, ay bala, heç olmazsa, bir az yemək ye, sonra get. O isə tələsirəm deyib məni qucaqladı. Demək bu son görüşməmiz imiş, son dəfə ətrini duyurmuşam balamın. O, torpağı hamıdan çox sevirmiş demə. Cənnət ətrini almağa gedirmiş. O, qapıdan çıxanda üzüağ, alnıaçıq qayıt dedim. Balam kimi onlarla oğul getdi ocaqlardan, kimi canını, kimisi isə gözünün nurunu, qolunu, ayağını qurban verdi Qarabağ uğrunda. Təki Vətən sağ olsun. Onlar illərdir, üstümüzdəki qara ləkəni öz qanları ilə sildilər. Bacımoğlu Vərməziyar kənd sakini Elməddin Meydanov da döyüşlərdə şəhid oldu.

*İki igidin ailəsində olub, onların əzizləri ilə söhbətləşdikdən sonra kənd məzarlığına üz tutur, Vətən oğullarının məzarını ziyarət edirik. Düşünürəm ki, illər keçəcək, hamımız dünyadan köçəcəyik. Onlar isə əbədi yaşayacaqlar bu xalqın ürəyinin başında. Anaların göz yaşında, ataların həsrət dolu baxışlarında, bəzənməyən xonçalarda, yarımçıq qalan "Vağzalı" sədalarında, düşməndən azad etdikləri torpaqların hər qarışında. Tarixin zəfər dastanında...*

**Ramiyyə ƏKBƏROVA**

## Torpaq mülkiyyətçiləri qarğıdalı əkininə başlayıb

Muxtar respublikanın torpaqlarında hər il meliorasiya-irriqasiya tədbirləri həyata keçirilir, bu sahə ilə məşğul olanlara güzəştli kreditlər verilir, texnika ilə təchizat diqqət mərkəzində saxlanılır.

Torpaq mülkiyyətçiləri digər təsərrüfat sahələri ilə yanaşı, qarğıdalı bitkisinin əkilib-becərilməsində də zəngin təcrübəyə malikdirlər. Son illər gəlirli təsərrüfat sahələrinin inkişafına göstərilən qayğı yüksəkkeyfiyyətli məhsul istehsalına səbəb olur. Bu baxımdan ötən il də istisna deyil. Belə ki, bu il Şərur rayonunda 1000 hektara yaxın ərazidə qarğıdalı əkilmişdir. Hazırda əkin işləri davam edir.

Bərəkətli və məhsuldar torpaq sahələri olan bölgədə cari təsərrüfat ilinə uğurla başlanılıb. Sahələrdən yaxşı məhsul əldə etmək üçün torpaq mülkiyyətçiləri payız aylarından əkinə başlamışlar. Belə ki, hər hektara təsiredici maddə hesabı ilə 250-300 kiloqram superfosfat verilib və sonra kövsəlik sahədə payız şumu edilmişdir. Yazda həmin sahələr pərşum edilir və qarğıdalı səpini vaxtı toxumla birgə yemləmə gübrəsi verilir.

İllik bol məhsulun əsasını qoymaq üçün torpaq mülkiyyətçiləri əlverişli keçən hava şəraitindən istifadə edərək əkinə başlayıblar. Əsasən, payız torpaqlarına geniş sahədə qarğıdalı səpilib. Şərur rayonu ərazisində qarğıdalı əkini, əsasən, Xanlıqlar, Zeyvə, Düdəngə, Maxta, Sərxanlı, Ələkli, Vərməziyar kəndlərində aparılıb.

Qeyd edək ki, son illərə qədər muxtar respublikada bu məhsula olan tələbat kənardan gətirilməklə ödənilirdisə, hazırda tələbatın böyük hissəsi yerli istehsal hesabına təmin edilir.

**Xəbərlər şöbəsi**

## Azərbaycanın ən güclü şahmatçıları Naxçıvanda



Dünən Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində şahmat üzrə Azərbaycan çempionatına start verilib. Mayın 18-dək davam edəcək kişilər arasında çempionatda 12 şahmatçı dairəvi sistem üzrə mübarizə aparacaq. Qalib gələcək zəka sahibi Azərbaycanı Dünya Kubokunda təmsil edəcək.

Reqlamentə gəlincə, çempionat 2 mərhələdə keçiriləcək. 1-ci mərhələdə 12 iştirakçı dairəvi sistem üzrə (11 turdan ibarət) mübarizə aparacaq. Hər bir şahmatçıya ilk 40 gedişə 1 saat 30 dəqiqə, sonra oyunun sonunadək 30 dəqiqə əlavə vaxt veriləcək. 1-ci gedişdən başlayaraq, hər gedişdən sonra 30 saniyə əlavə olunur. Heç-heçəyə razılaşmağa yalnız qaraların 40-cı gedişindən sonra icazə veriləcək. Çempionatda yerlər toplanmış xalların cəminə görə müəyyən ediləcək. İki və ya daha çox şahmatçı eyni xal toplayarsa, yerlər əlavə göstəricilərə əsasən müəyyən olunacaq.

İlkin mərhələdə 1-4-cü yerləri tutan şahmatçılar 2-ci mərhələdə play-off sistemi üzrə yarımfinal (I-IV, II-III) və finalda çempionu müəyyən edəcəklər. Yarımfinal və final mərhələlərində iki oyun (ağ və qara fiqurlarla) keçiriləcək. Əgər hesab 1:1 olarsa, əvvəlcə 15 dəqiqə + 10 saniyə nəzarət vaxtı ilə (sürətli şahmat) əlavə 2 oyun (ağ və qara fiqurlarla), yenə də qalib müəyyən olunmazsa, 5 dəqiqə + 3 saniyə nəzarət vaxtı ilə (blits) 2 oyun və nəhayət, qalib müəyyən olmadıqda "armageddon" (ağlara 5, qaralara 4 dəqiqə vaxt verilir və ağlar qalib gəlməsələr, qalib qara fiqurlarla oynayan olur) oynanılacaq.

Yarımfinal mərhələsində məğlub olmuş şahmatçılar eyni sistem üzrə 3-cü yer uğrunda yarışacaqlar.

Çempionatda kişilər arasında Azərbaycan milli komandasının üzvləri, 1 aprel tarixdə beynəlxalq əmsalı 2500-dən yuxarı olan və son 5 ildə turnir və çempionatlarda aktiv iştirak edən şahmatçılar (sıra ilə), 2019-cu il kişilər arasında Azərbaycan çempionu, 2019-cu il Azərbaycan çempionatında 1-ci dəstənin qalibi, 2021-ci il Naxçıvan Muxtar Respublikasının çempionu olan zəka sahibləri qalibi müəyyənləşdirməyə çalışacaqlar.

Püşkatmaya əsasən ilk turda aşağıdakı qarşılaşmalar keçiriləcək:

*qrossmeyster Eltac Səfərli (2598) - qrossmeyster Urfan Sevdimalıyev (2369)*

*qrossmeyster Nicat Abasov (2665) - beynəlxalq usta Aydın Süleymanlı (2520)*

*qrossmeyster Nicat Məmmədov (2609) – qrossmeyster Vüqar Əsədli (2572)*

*qrossmeyster Vasif Durarbəyli (2606) - beynəlxalq usta Kənan Qarayev (2331)*

*qrossmeyster Misrətdin İsgəndərov (2535) - beynəlxalq usta Abdulla Qədimbəyli (2470),*

*qrossmeyster Fərid Abbasov (2528) - beynəlxalq usta Məhəmməd Muradlı (2449)*

Qeyd edək ki, çempionatın ümumi mükafat fondu 15.000 (on beş min) manat təşkil edir.

**Ceyhun MƏMMƏDOV**

## İmmunlaşdırma həftəsi başa çatıb

***Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən başlayaraq Avropa regionunda "İmmunlaşdırma həftəsi" keçirilir və Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi bu tədbirlərdə iştirak edir.***

Aprelin 22-dən start götürən növbəti immunlaşdırma həftəsi ayın 30-da başa çatıb.

Əziz Əliyev adına "Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası" publik hüquqi şəxsi, Şərur və Ordubad rayon uşaq xəstəxanaları, rayon mərkəzi xəstəxanaları tərəfindən hər hansı səbəbə görə immunlaşdırmadan kənarda qalan 251 uşağın "İmmunlaşdırma həftəsi" ərzində peyvəndlərə cəlb edilməsi təmin olunub ki, bunun da 219 nəfəri Mərkəzi Uşaq Xəstəxanasının payına düşür. Valideynləri tərəfindən peyvənddən imtina edilən uşaqların sayı 151 nəfərdir. Nəticələr haqqında məlumat Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə təqdim olunub. "İmmunlaşdırma həftəsi" ərzində peyvəndlərlə əhatə səviyyəsinə nəzarət məqsədilə muxtar respublikanın rayonlarında monitorinqlərin keçirilməsi də təmin edilib.

Qeyd edək ki, uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Odur ki, əhalinin, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir. Həmin tədbirlərin davamı olaraq 2018-ci il oktyabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Sərəncam imzalanıb. Dövlət proqramının məqsədi uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə onların arasında xəstələnmənin, sağlamlıq imkanlarının məhdudluğunun və ölüm səviyyəsinin azaldılmasından ibarətdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***


## Elan

Şahbuz "Mehmanxana" Açıq Tipli Səhmdar Cəmiyyəti idarə heyəti bildirir ki, cəmiyyətin 2020-ci ilin yekunları, 2021-ci ildə görüləcək işlər barədə iclası keçiriləcək.

İclas 20 may 2021-ci il mehmanxananın inzibati binasında, saat 10:00-da olacaq.

Cəmiyyət üzvlərinin iştirakı məcburidir.

***İdarə heyəti***

### İtmişdir

Şahbuz rayonunun Kükü kəndində yaşayan İbadov Qurban Nəsrulla oğlunun adına verilmiş MH-41054 nömrəli dövlət reyestrindən çıxarış və AA-010579 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 371